# BAŞ REDAKTORDAN

Qüvvət elmdədir, başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz.
Hər cür rütbədən biliniz, fəqət
Alimin rütbəsi ucadır əlbət.

**(N.Gəncəvi)**



Dahi Nizaminin təbirincə desək, güc də, qüvvət də elmdədir. Yalnız elm səviyyəsinə görə insanlar bir-birindən üstün ola bilərlər. Tarixə nəzər salanda görürük ki, dövrün mütəfəkkirləri daim elm, maarif, mədəniyyət, təhsil, kitab və onun qüdrəti haqqında çox qiymətli fikirlər söyləmişlər. Bu ibrətamiz fikirlər insanı düşündürür, doğru yola istiqamətləndirir və xüsusilə də gənc nəslin düzgün tərbiyə olunmasında çox böyük əhəmiyyət kəsb edir.

Qeyd edək ki, son illər uğurla həyata keçirilən dövlət islahatlarının yekun nəticəsi olaraq bu gün respublikamızda çağdaş dünyanın tələblərinə uyğun savadlı, yüksək səviyyəli, vətənpərvər mütəxəssislərin hazırlanması əsas vəzifələrdən biridir.

Hazırda beynəlxalq münasibətlərdə siyasi, iqtisadi, elmi-texniki, ekoloji və informasiya xarakterli amillərin müstəsna rol oynaması Azərbaycan Respublikasının milli maraqlarının ödənilməsində elmin inkişafına təkan vermişdir. Elmin inkişafı Azərbaycanda dövlət siyasətinin mühüm prioritetlərindən biridir. Çünki dövlətin sosial-iqtisadi qüdrəti, ölkənin müdafiə qabiliyyəti və milli təhlükəsizliyi, cəmiyyətin mədəni-mənəvi tərəqqisi və xalqın rifahı elmin inkişaf səviyyəsi ilə birbaşa əlaqəlidir.

Elm haqqında Azərbaycan Respublikasının Qanununda Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasında elmi fəaliyyətin təşkili, idarə edilməsi və inkişafı sahəsində dövlət siyasətinin əsas prinsiplərini, elmin və elmi-innovasiya fəaliyyətinin məqsədlərini, elmi fəaliyyət subyektlərinin

hüquq və vəzifələrini, elmin maliyyələşdirilməsi mexanizmlərini, elmi nailiyyətlərin stimullaşdırılması və onlardan istifadənin təşkilati-hüquqi əsaslarını müəyyən edir. Bu Qanun ölkənin siyasi, iqtisadi, sosial və mədəni inkişafının təmin edilməsi, hər bir Azərbaycan Respublikası vətəndaşının rifahının və elmi səviyyəsinin yüksəldilməsi, yeni biliklərə yiyələnməsi və dünyanı dərk etmək kimi təbii və mənəvi ehtiyaclarının ödənilməsində elmin aparıcı rolunu və vəzifələrini müəyyənləşdirir.

Elm haqqında Azərbaycan Respublikası qanunvericiliyinin əsas məqsədi elmi fəaliyyətlə məşğul olan subyektlərin konstitusiya hüquqlarının təmin edilməsi, qorunması və elm sahəsində mövcud olan münasibətlərin tənzimlənməsinin təşkilati-hüquqi bazasının yaradılmasından ibarətdir.

Elm insan fəaliyyəti növüdür. Belə ki, elmi biliklərin əldə edilməsinə, tətbiqinə və təbliğinə yönəlmiş elmi tədqiqat və yaradıcılıq prosesləri elmi fəaliyyətdə öz əksini tapmış olur. Bu fəaliyyətin əsasını elmi biliklərin toplanması təşkil edir. Təbii ki, burada elmi faktlar, onların əldə olunması, daima yenilənməsi və sistemləşdirilməsi, tənqidi analizi və s. əsas rol oynayır. Hər hansı bir elm haqqında təsəvvür bu elmin obyektini, metodunu və prinsipini öyrənməkdən başlayır.

Məlumdur ki, elmi fəaliyyətin istiqamətləri – fundamental, tətbiqi və eksperimental tədqiqatların aparılması, elmi tədqiqatların ekspertizası, tətbiqi, aprobasiyası və yüksək elmi kadrların hazırlanmasıdır.

Beləliklə, Tələbə Elmi Cəmiyyətinin daha da inkişaf etdirilməsi, tələbə-gənclərimiz tərəfindən aparılan elmi araşdırmaların işıqlandırılması, həmçinin tələbələrdə akademik fəaliyyətin stimullaşdırılması, o cümlədən elmi yaradıclıq fəaliyyətinin inkişaf etdirilməsi məqsədi güdən "Elmi inkişaf" adlı nəzəri və təcrübi jurnal xüsusi əhəmiyyət kəsb edir.

İldə iki dəfə nəşri nəzərdə tutulan "Elmi inkişaf" adlı nəzəri və təcrübi jurnal Respublikamızda fəaliyyət göstərən ali təhsil müəssisələrində Tələbə Elmi Cəmiyyətlərini daha da inkişaf etdirmək məqsədi güdərək nəşr olunur.

Bu dərgidə tələbələrin ayrı-ayrı mövzular üzrə apardıqları sistemli elmi tədqiqat işləri nəticəsində əldə etdikləri yeniliklər, uğurlar, nailiyyətlər və nəticələr öz əksini tapır və tapacaqdır.

Həmçinin qeyd edim ki, biz xaricdə təhsil alan azərbaycanlı gənclərimizlə də elmi dostluq əlaqələri yaratmaq arzusundayıq. Belə ki, xaricdə təhsil aldığı müddətdə apardıqları elmi araşdırmaları, əldə etdikləri nəticələri, uğurları və nailiyyətləri də bu dərgidə işıqlandırmaq niyyətindəyik.

Müxtəlif univeristetlərlə əməkdaşlıq, tələbələr arasında körpü yaratmaq bu jurnalın əsas amalıdır.

Yaratdığımız **elmi-inkishaf.az** saytı vasitəsilə jurnalın elektron nəşrlərini də əldə etmək üçün imkan yaratmışıq. **Elmi-inkishaf.az** saytında imkanlar daha geniş olduğu üçün jurnalın elektron nəşrlərindən əlavə yeni nəşr olunan elmi kitablar, dünyada fəaliyyət göstərən nəşriyyatlar, kitabxanalar, kitab mağazaları və muzeylər haqqında maraqlı məlumatlar əldə edə biləcəksiniz.

"Elmi inkişaf" jurnalının işıq üzü görməsi münasibətilə bütün tələbələri təbrik edir, onlara elm yollarında uğurlar arzu edirik.